# Bütün məkrli oyunların "moderatoru" Fransadır

## Parisin hələ də ermənilərdən daha çox ermənilik etməsi təəccüb doğurmur

**Azərbaycanın Vətən müharibəsindəki Zəfərini həzm edə bilməyən Fransa ermənipərəst siyasətini artıq açıq müstəviyə keçirib. Görünən odur ki, bu ölkəni ən çox qorxudan da Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır. Elə buna görə də hər vəchlə regionda münaqişə ocağının qalmasına çalışır, hər kürsüdən Azərbaycan əleyhinə qarayaxma kampaniyalarına moderatorluq edir.**



Bu xüsusda Ermənistanı silahlandırması, öz nümayəndələrini sərhədə göndərməsi də Parisin hansı məqsədə qulluq etdiyini açıq-aydın göstərir.

Milli Məclisin deputatı Anar İsgəndərov bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə bildirib ki, ümumiyyətlə, Qərb 30 il ərzində Qarabağla, Azərbaycan torpaqlarının işğalı ilə bağlı ədalətli mövqe tutmayıb, fikir söyləməyib.

Deputat qeyd edib ki, bu sırada ən öndə gedən Fransa Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayan gündən onları müdafiə edərək daim haqq qazandırıb. "Bəraəti də bu olub ki, guya Fransada kifayət qədər erməni yaşayır və bütün bunların başında erməni lobbisi durur. Əslində, Fransa əvvəldən axıra kimi Ermənistanı müdafiə etməklə, ədalətli dövlət olmadığını ortaya qoydu. Ona görə də Azərbaycan 44 günlük Vətən müharibəsini uğurla başa çatdırarkən Fransanın nə qədər təhdid və təzyiqləri olsa da, bunlar bizə təsir etmədi. Bütün bu təhdidlər dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevi haqq yolundan döndərmədi, döndərə də bilməzdi", - deyə deputat əlavə edib.

İkinci Qarabağ müharibəsindən sonra da Fransanın ədalətsiz mövqeyindən əl çəkmədiyini vurğulayan A.İsgəndərov deyib ki, Paris hələ də ermənilərdən daha çox ermənilik edərək Hayastanı müdafiə edir. Azərbaycan-Ermənistan sərhədinə Fransadan hərbçilər göndərilib. Digər tərəfdən isə Fransa Ermənistanı silahlandırmaqla məşğuldur. Ancaq bütün bunlar əbəsdir, ona görə ki, dünya ancaq Fransadan ibarət deyil. Bu ölkənin bizə qarşı niyyəti, məqsədi məlumdur. Azərbaycan Fransa kimi dövlətlərə qarşı münasibətdə dost dövlətlərin yanındadır, həmçinin onlar da Azərbaycanın yanındadırlar.

Deputat vurğulayıb ki, Ermənistan nə qədər silahlansa da, məğlub dövlətdir: "Yeni cəhdlər olacaqsa, onda Ermənistan faciəli aqibətlə üzləşəcək. Nə zaman ki ermənilər Cənubi Qafqazda yox idi, belə problem də yox idi. Onlar regiona yerləşdirildikdən sonra problemlər artdı. Bunu həm Azərbaycan, həm Gürcüstan tərəfi, həm də dünya dövlətləri yaxşı dərk edirlər".

A.İsgəndərov sonda qeyd edib ki, məğlub Ermənistan Fransaya arxayın olub regionda əmin-amanlığı pozmamalıdır və öz gələcəyini düşünürsə, sülh müqaviləsinə getməlidir. İki ölkə arasında sülh bağlanmalıdır ki, Cənubi Qafqaz dünyanın ən sabit, təhlükəsiz, firavan bölgəsi kimi diqqəti çəksin.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 12 fevral, № 31.- S.7.